Anadolu Türk Eğitim Dergisi
Anatolian Turkish Journal of Education
ISSN:2867-5314

Yıl/Year: 2024 Cilt/Volume: 6 Sayı/Issue: 1 (Nahçıvan Özel Sayısı) ss/pp. 93-99

**Makale Geliş Tarihi:** 02/05/2024
**Makale Kabul Tarihi:** 22/05/2024
**Makale YayınTarihi:** 05/06/2024
**Makale Türü:** Orijinal Araştırma Makalesi

# NAXÇIVANIN QƏDİM QALA ŞƏHƏRLƏRİNİN ÖYRƏNİLMƏSİ TARİXİ*

**Rəsul Bağırov**
Assoc. Prof. Dr. Naxçıvan Dövlət Universiteti, Ümumi Tarix, Nahçıvan. Azerbaycan
bagirovresul11@gmail.com, ORCİD No: 0009-0001-0812-6682

## Özet

Məqalə Azərbaycandavə bütövlükdə Cənubi Qafqazda e.ə. III-II minilliklərdə baş verən iqtisadi, ictimai və siyasi dəyişikliklərin, eləcə də etnik formalaşma prosesi kimi çox aktual problemlərin dərindən və hərtərəfli tədqiq olunması üçün Naxçıvanın qədim qala şəhər abidələri çox dəyərli elmi qaynaqlar olmasından bəhs edilir. Naxçıvanın tunc və ilk dəmir dövrü qala şəhər tipli yaşayış yerləri və istehkam abidələrinin tədqiqi Azərbaycanın qədim tarixşünaslığında və memarlıq tarixində həllini uzun müddət tapmamış bir çox problem məsələlərin öyrənilməsi üçün lazımi elmi imkanlar vermişdir. Məqalədə Naxçıvanın qala – şəhər tipli yaşayış yerlərində hər şeydən əvvəl, Azərbaycanda qədim-şəhər mədəniyyətinin meydana gəlməsi formalaşması səciyyəvi xüsusiyyətləri öz əksini tapmışdır. Abidələrdə aşkara çıxarılmış müdafiə sədləri, qala bürcləri, narınqalalar, daş döşənmiş küçələr, dulusçuluq və metalişləmə emalatxanaları, ibadətgahlar, e.ə. II-I minillikdə Naxçıvan ərazisində ilkin dövlət elementlərinin inkişaf tapdığı haqqında yeni fikir söyləməyə imkan verir.

**Anahtar Kelimeler**:Qala. İstehkam. Abidə. Yaşayış yeri. Oğlanqala. Sədərək Qalası. Sum Qalası. Nəhəcir Qalası.

# THE STUDY OF THE ANCIENT FORTRESS CITIES OF NAKHCHIVAN HISTORY

## Abstract

In the article, in Azerbaijan and the South Caucasus as a whole, B.C.It is said that the ancient fortress-city monuments of Nakhchivan are very valuable scientific resources for the deep and comprehensive study of the economic, social and political changes that took place in the III-II millennia, as well as the process of ethnic formation. The study of Nakhchivan's Bronze and Early Iron Age castle-town-type dwellings and fortification monuments provided the necessary scientific opportunities for the study of many problems that have not been solved for a long time in the ancient historiography and architectural history of Azerbaijan. In the article, first of all, the characteristic features of the formation of the ancient-city culture in Azerbaijan are reflected in the fortress-city-type settlements of Nakhchivan.Defense walls, towers, orange groves, cobbled streets, pottery and metalworking workshops, chapels, etc. were discovered in the monuments.It allows us to give a new opinion about the development of the initial elements of the state in the territory of Nakhchivan in the II-I millennium.

**Key words:** Castle fortification, monument, residence, Oglan Castle, Sadarak Castle, Sum Castle, Nahajir Castle.

**Atıf / Citation**

Bğırov, R. (2024). Naxçıvanın Qədim Qala Şəhərlərinin Öyrənilməsi Tarixi. *Anadolu Türk Eğitim Dergisi*, *6*(1), 93-99.

Bğırov, R. (2024). The Study of the Ancient Fortress Cities of Nakhchivan History. *Anatolian Turkish Journal of Education*, *6*(1), 93-99.

---

[*] Bu çalışmada "Yükseköğretim Kurumları Bilimsel Araştırma ve Yayın Etiği Yönergesi" kapsamında uyulması belirtilen tüm kurallara uyulmuştur.

Məlum olduğu kimi dünyada ilk şəhər tipli yaşayış yerləri, sinifli cəmiyyətlər və dövlət qurumları Mesopotamiyada (Dəclə və Fərat çayları arası, indiki İraq ərazisi) və Misirdə e.ə. IV minilliyin sonunda yaranmışdır. Belə mədəniyyət sivilizasiya adlanır. Bu söz latın dilində svitas – şəhər icması mənası daşıyır. Azərbaycan dilində də işlətdiyimiz mədəniyyət anlayışı ərəb dilindəki mədinə - şəhər sözündəndir. Ona görə də şəhərlərin yaranması qədim cəmiyyətlərin ictimai-iqtisadi həyatında əsaslı keyfiyyət dəyişikliklərinin meydana gəlməsini göstərir. Antropogen zonaya daxil olan Qafqazda, o cümlədən Azərbaycanda, çixminillik tarixi inkişaf prosesinin nəticəsi olaraq belə keyfiyyət dəyişikliklərinin baş verməsi e.ə. III minilliyin 2-ci yarısından müşahidə olunur.

Azərbaycanda ibtidai icma quruluşunun son mərhələləri tarixinin və mədəniyyətinin öyrənilməsi üçün Naxçıvan MR ərazisindəki qala-şəhər tipli yaşayış yerləri və müdafiə istehkamları əvəzsiz maddi mənbələrdir. Muxtar Respublikanın qədim tarixində e.ə. II-I minilliklərdə baş vermiş çox mühüm iqtisadi və ictimai-siyasi dəyişikliklər məhz həmin abidələrin tədqiqi əsasında araşdırılmışdır.

Azərbaycanda son tunc və ilk dəmir dövründə metallurgiya və metalişləmə sənətinin yüksək səviyyədə inkişafını əhalinin iqtisadi həyat tərzində, hərb işində çox mühüm rol oynaması Naxçıvan MR-ın qala-şəhər tipli yaşayış yerlərindən əldə edilən faktik materiallar əsasında izlənilir (Əliyev, Bağırov 2012; 17).

Bu dövrdə qədim Naxçıvan əhalisi arasında birinci və ikinci böyük ictimai əmək bölgüləri daha da genişlənmiş, əkinçilik, maldarlıq və sənətkarlıq müstəqil təsərrüfat sahələri kimi yüksək inkişaf tapmış, ayrı-ayrı tayfalarda əmək məhsuldarlığı xeyli artmış və izafi məhsul yığımı böyük var-dövlət sahibi olan zadəganlar nəslinin ictimai-siyasi mövqeyini gücləndirmişdir. Belə tayfalar tezliklə varlanmağa və daha geniş torpaq sahələrinə sahib olmağa can atmışlar.

Bəzi maldar tayfa başçılarının əlində böyük sərvətlər toplanmışdır. Yeni otlaq sahələri və başqasının sərvətini ələ keçirmək cəhdləri həm tayfa daxilində, həm də qonşu tayfalar arasında toqquşmalara səbəb olmuşdur.

Bu dövrdə nisbətən varlanmış tayfalar öz var-dövlətini qonşu tayfalardan və Ön Asiya dövlətlərinin basqınlarından qorumaq məqsədilə yaşayış yerlərinin ətrafında möhtəşəm qala divarları tikmişlər.

Dağlıq və dağətəyi ərazilərdə belə möhkəmləndirilmiş məskənlərin ətrafında müdafiə divarları daşdan, iri qaya parçalarından, düzən bölgələrdə isə çiy kərpic və möhrədən inşa edilmişdir.

Ətrafı hasarlanmış bu yaşayış məskənlərinin bir qismi iqtisadi və mədəni cəhətdən inkişf edərək bu dövrdə yaranmış iri tayfa birliklərinin mərkızinə - qala-şəhərlərə çevrilmişdir.

Azərbaycanda tunc və ilk dəmir dövrünə aid olan qala-şəhər tipli yaşayış yerləri və ayrıca müdafiə qalaları əsasən, Naxçıvan MR ərazisində tədqiq edilmişdir.

Naxçıvan MR ərazisində arxeoloji tədqiqatlara, əsasən, XX əsrin 20-30-cu illərindən başlanılmışdır.

1936-cı ildə ilk Azərbaycan arxeoloqlarından biri sayılan Ə.K.Ələkbərov Naxçıvan MR ərazisində arxeoloji kəşfiyyat xarakterli tədqiqat işləri aparmışdır. O, Əlincəçay vadisində axtarışlar aparmış, Ərəfsə, Qazançı və Nəhəcir kəndləri ərazisində bir sıra tunc dövrü abidələrini qeydə almış, monoxrom boyalı keramika məmulatı əldə etmişdir. Lakin, bu tədqiqatçı Qazançı və Nəhəcir qalalarına rast gəlmədiyindən onların haqqında məlumat verməmişdir.

Ə.K.Ələkbərov 1936-cı ildə Şərur rayonu ərazisində, Arpaçay vadisində Qaratəpə dağı üzərində yerləşən və əhali tərəfindən “Oğlanqala” adlanan qədim qala-şəhər tipli yaşayış yerində olmuş və burada kəşfiyyat xarakterli qazıntı işləri aparmışdır. Abidənin möhtəşəm müdafiə qalası tədqiqatçının diqqətini xüsusilə cəlb etmişdir. O, bu qalanı qədim Assuriya qalaları ilə müqayisə etmişdir. Oğlanqaladan əldə olunmuş boyalı gil məmulatı qədim Naxçıvanın ilkin şəhər mədəniyyəti üçün səciyyəvidir.

Ə.K.Ələkbərov 1936-cı ildə Şahraxtı Govurqalasında və onun nekropolunda qazıntı işi aparmış və bu qalanın e.ə. II minilliyə aid şəhərtipli yaşayış yeri olduğunu söyləmişdir (Cəfərzadə 1973; 36).

Naxçıvan MR ərazisində qala şəhərtipli yaşayış yeri abidələrinin geniş arxeoloji tədqiqinə II Kültəpə abidəsində başlanmışdır. Bu abidə 1960-cı ildə V.H.Əliyev tərəfindən Yuxarı Uzunoba kəndi yaxınlığında aşkar olunmuşdur.

1966-cı ildə V.H.Əliyev Culfa rayonunun Nəhəcir kəndi ərazisində arxeoloji tədqiqatlar aparmış, kurqanlar qeydə almış, monoxrom boyalı qablar əldə etmiş və siklopik tipli tikililər aşkar edilmişdir.

1968-ci ildə Araz dəryaçasının tikintisinə başlanıldığı zaman Araz çayının sol sahilindəki abidələrdə

(Qızılburun, Xarabaşəhər və s.) və II Kültəpədə ilk qazıntı işləri O.H.Həbibullayev, V.H.Əliyev tərəfindən aparılmış və II Kültəpənin Narınqalasının təxmini, terüstü planı müəyyən edilmişdir. Narınqala yerinin cənub hissəsində səddin qalığı aydın izlənmişdir. Həmin yerdə olanlı qazıntı işi aparılmış və Narınqalanın cənub divarının bir hissəsi 13 m uzunluğunda açılmışdır (Həbibullayev, Əliyev 1968; 44).

1960-1980-ci illərdə V.H.Əliyev və M.M.Seyidov tərəfindən Qarabağlar kəndi ərazisində Qalacıq, damlama və Govurqala abidələrində arxeoloji tədqiqat işləri aparılmış, kurqanlar, daş qutu qəbirləri aşkara çıxarılmış, boz, qara sadə, monoxrom boyalı gil qablar, tunc məmulatları, müxtəlif bəzək nümunələri əldə edilmişdir (Əliyev, Seyidov. 1978; 1-17).

1970-ci ildən başlayaraq Oğlanqalada V.H.Əliyev tərəfindən arxeoloji tədqiqatlar aparılmışdır. Şərur rayonu ərazisində Qaratəpə dağının üzərində yerləşən bu qədim qala-şəhərin müxtəlif terraslarda tikilmiş müdafiə istehkamları nəzərdən keçirilmiş, tikinti xüsusiyyətləri öyrənilib, lazımi materiallar toplanmışdır.

Oğlanqalanın Qaratəpənin zirvəsində yerləşən narınqalası ilə terraslardakı müdafiə sistemi birlikdə şərh edilmədiyindən bu qədim qala-şəhərin əsl tarixi mahiyyəti aydınlaşmamışdır.

V.H.Əliyev hər şeydən əvvəl Oğlanqalanın Qaratəpə dağının birinci və ikinci terraslarındakı mürəkkəb müdafiə sistemlərini, bu abidənin Ön Asiya, Yaxın Şərq və Cənubi Qafqazın qədim müdafiə istehkamları arasında tarixi yerini müəyyənləşdirməyə çalışmışdır.

O, araşdırmalar nəticəsində belə nəticəyə gəlmişdir ki, çoxpilləli memarlıq planına malik olan Oğlanqala müdafiə istehkamları öz inşa xüsusiyyətlərinin müəyyən cəhətlərinə, xüsusilə bərkidici materialdan istifadə olunmadan tikilməsinə görə Cənubi Qafqazın siklopik tipli qalaları ilə oxşarlığına baxmayaraq, bu abidə qədim Naxçıvan qalatikmə memarlıq mədəniyyəti üçün səciyyəvidir. Oğlanqalada nəzərə çarpan bir sıra memarlıq xüsusiyyətləri II Kültəpənin narınqalasının tikinti xüsusiyətləri ilə müqayisəli şəkildə təhlil edilmiş və Naxçıvan ərazisində e.ə. II minilliklərdə qala-şəhər tipli yaşayış yerlərinin inkişaf tapması haqqında elmi mülahizə bir qədər də əsaslandırılmışdır (Əliyev, Bağırov. 2012; 33).

Oğlanqala qala-şəhərin Naxçıvanın qədim iqtisadi, ictimai, siyasi tarixində oynadığı rolu düzgün müəyyənləşdirmək və onun memarlıq kompleksinin dəqiq planını çıxarmaq çox vacib idi.

Bu məqsədlə V.H.Əliyev Azərbaycan tarixi memarlığının tədqiqatçısı Ə.V.Salamzadə ilə birlikdə Oğlanqalada araşdırmalar aparmışdır.

Arxeoloq V.H.Əliyev və memar V.H.Kərimov tərəfindən Qaratəpə dağının ayrı-ayrı terraslarında yerləşən müdafiə divarlarının, düzbucaqlı, yarımdairəvi qala bürclərinin və narınqalasının kompleks planı çıxarılmışdır.

Oğlanqalanın şimal, cənub qala divarlarının, qala bürclərinin, narınqalasının müdafiə divarlarının memarlıq-inşaat xüsusiyyətləri araşdırılıb lazımi materiallar toplandı. Narınqaladan cənubdakı terrasda yaşayış binaları qalıqlarının yerləri, qərb tərəfdə mərmər qayalıqda çapılıb düzəldilmiş su hovuzunun yeri müəyyənləşdirildi.

V.H.Əliyev 1976-cı ildə Şrur rayonunun şimal-qərbində arxeoloji tədqiqatlar aparmış, Sədərək və Kərki kəndləri arasında uzanan Teygar dağının şimal-qərb hissəsində siklopik tipli müdafiə səddi qeydə alınmışdır. Bu qala Kərki kəndindən keçən ticarət yolu üzərində yerləşir.

Tejgar dağının şimal-qərb ətəyində, Kərki kəndi ərazisində orta tunc dövrünə aid yaşayış yeri və onunla həmdövr qədim qəbiristanlıq aşkar olunmuşdur. Dağıtıya məruz qalan qəbirlərdən e.ə. II minilliyin əvvəllərinə aid monoxrom boyalı qablar əldə edilmişdir (Əliyev. 1977; 77).

1973-cü ildə VəH.Əliyev II Kültəpədən şimalda, Vayxır kəndinin ərazisində, Naxçıvan çayının hər iki sahilində arxeoloji axtarışlar aparmış və Qızılboğaz adlı keçidin üzərində, strateji cəhətdən çox əlverişli, sıldırım yamaclı qayalıq ərazidə Govurqala adlandırılan müdafiə istehkamı qeydə alaraq lazımi material toplamışdır. Bu qaladan 2 km Cənub-Şərqdə Vayxır kəndi ərazisində e.ə. II-I minilliklərə aid qədim yaşayış yeri və ona məxsus nekroloq aşkar olunmuş, sadə, monoxrom boyalı gil qab nümunələri, tunc sırğa və əqiq muncuqlar əldə edilmişdir (Əliyev. 1973; 38).

Azərbaycan EA Arxeologiya və Etnoqrafiya İnstitutunun baş planında Oğlanqalanın ilk növbədə narınqalasının bütövlükdə tədqiq olunması planlaşdırılmışdır.

Lakin, 1988-1989-cu ildə Naxçıvan Elmi Mərkəzinin əməkdaşı V.Bəxşəliyev narınqalanın cənub hissəsində kiçik bir sahədə qazıntı işi aparmışdır. Burada Narınqalanın divarına bitişən daş tikinti qalığı

açılmış, ictimai binaya aid inşaat daşları, sütun hissələri və altlığı, daş, keramika məmulatları aşkar edilmişdir. Qazılmış mədəni təbəqə 4 tikinti qatına bölünmüş və e.ə. IX-IV əsrlərə aid edilmişdir (Əliyev, Baxşəliyev. 1983; 30).

Q.M.Aslanov və Q.H.Ağayev tərəfindən Əznəbürd və Şahtaxtı-Govurqala qala-şəhər tipli yaşayış yerlərində qazıntı işləri aparılmışdır.

1983-cü ildə Şahtaxtı-Govurqalasında tədqiqatlar bir qədər geniş planda davam etdirilmişdir. Bundan əvvəlki illərin qazıntıları zamanı Govurqalanın şimal-qərb müdafiə divarının bir hissəsi açılmışdır. Qazıntılar əsasən Govurqalanın şimal hissəsində aparılmış və burada mədəni təbəqə qala divarının bünövrəsinə qədər öyrənilmişdir. Həmin sahənin qazıntılarının nəticəsində Govurqalanın planı memar V.H.Kərimov tərəfindən müəyyənləşdirilmişdir.

Govurqalanın şimal-şərq hissəsində açılmış müdafiə divarı ən qədim tikinti sayılır. Bu qala divarı (eni 2,8 m, hündürlüyü 1,2 m) orta tunc dövrünə - e.ə. XVII əsrə aid edilmişdir.

Son tunc dövründə Govurqalanın qala divarları görünür, müəyyən dağıntıya və aşınmaya məruz qaldığından, e.ə. II minilliyin sonlarında müdafiə divarları yenidən tikilmiş və bərpa olunmuşdur.

Govurqalanın qazıntılarından və onun ətrafındakı nekropolda açılmış kromlexli daş qutu qəbir abidələrindən orta, son tunc və ilk dəmir dövrlərinə aid sadə monoxrom və polixrom boyalı gil qablar, tunc məmulatları, müxtəlif bəzək nümunələri, silindrik möhür və s. materiallar əldə edilmişdir (Əliyev. 1974; 70).

XX əsrin 90-cı illərində SSRİ imperiyasının dağılması nəticəsində Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra yaranmış madi çətinliklər Naxçıvanda arxeoloji tədqiqatlar aparılması işini bir qədər məhdudlaşdırmışdır. Lakin, əsrin sonlarından etibarən Muxtar Respublikanın maddi-mədəniyyət abidələrinin öyrənilməsi sahəsində yeni addımlar atılmışdır.

Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Naxçıvan arxeoloji ekspedisiyası Şərur rayonu ərazisində, xüsusilə Arpaçay vadisində, Ovçulartəpəsi, Daşarx, Oğlanqala, Qızqalası, Böyükqala və Kiçikqala abidələrində axtarışlar aparılmış, qala-şəhər tipli yaşayış yerlərindən və onlarla bağlı olan müdafiə istehkamlarından materiallar toplanmışdır.

XXI əsrin başlanğıcında naxçıvan MR arxeoloji abidələrinin tədqiqi sahəsində böyük uğurlar qazanılmışdır. 2001-ci ilin avqustunda V.H.Əliyev və S.H,Aşurov Şərur rayonu ərazisində Daşarx və Ovçulartəpəsi yaşayış yerində qazıntı işləri, Sədərək rayonu ərazisində isə kəşfiyyat xarakterli axtarışlar aparmışlar.

V.H.Əliyev və R.B.Bağırov tərəfindən Sədərək rayonu ərazisində, Vəlidağ üzərində e.ə. II-I minilliklərə aid qala-şəhər tipli yaşayış yeri və möhtəşəm müdafiə istehkam kompleksi aşkar edilmişdir. Qala-şəhərin memarlıq xüsusiyyətləri araşdırılmış, keramika məmulatı və daş alətlər toplanmışdır (Əliyev, Bağırov. 2012; 29).

Sədərək qalasının əlverişli strateji mövqeyi, qədim Naxçıvana yadelli basqınların qarşısının alınmasında mühüm rol oynamışdır. Eyni zamanda Ön Asiyadan, Qədim Anadoludan gələn ticarət yolu üzərində əsas nəzarətedici müdafiə istehkamı olmuşdur.

Sədərək qalasının müdafiə istehkamlarının ölçüləri götürülmüş, inşa xüsusiyyətləri öyrənilmiş və Naxçıvanın siklopik tipli çoxpilləli qədim qalatikmə memarlığı üçün səciyyəvi abidə olduğu müəyyənləşdirilmişdir.

Vəlidağın cənub ətəyindəki terrasda yerləşən və xalq arasında Fərhadarxı adlandırılan iri qara mərmər bloklardan qurulmuş tikinti nəzərdən keçirilmiş və bu abidənin bilavasitə Sədərək qalası ilə bağlı qədim müdafiə istehkamı olduğu müəyyən edilmişdir.

2001-ci ildə V.H.Əliyev və R.B.Bağırov tərəfindən Nəhəcir dağının Cənub və Şərq ətəyindəki terraslarda e.ə. II-I minilliklər üçün səciyyəvi sayılan siklopik müdafiə sədləri aşkar edilmiş və cənub tərəfdə dağın üzərində Qalacıq abidəsinin olduğu müəyyənləşdirilmişdir. Həmin abidədən daş balta və dibək tipli daş əmək aləti tapılmışdır(Əliyev, Bağırov. 2012; 29).

Burada sərt sıldırımlı qayalıqlar arasındakı yastanada 100-dən artıq dördbucaqlı, dairəvi, ovalvari planda daş tikililər aşkara çıxarılmış, boz, çəhrayı rəngli gil qab qırıqları, çaxmaqdaşı kəsici lövhələr tapılmışdır.

2002-ci iyunundaV.H.Əliyev və R.B.Bağırov Şahbuz rayonunun Şada kəndi ərazisində arxeoloji

axtarışlar aparmış, Qalatəpə abidəsini qeydə almış və e.ə. II minilliyin sonu – e.ə. I minilliyin əvvəlinə aid boz, çəhrayı rəngli keramika məmulatı toplamışlar.

2002-ci il iyul ayında V.H.Əliyev və R.B.Bağırov tərəfindən Babək rayonu Nehrəm kəndi ərazisində arxeoloji axtarışlar aparılmış, Dağ-Yunus dağı üzərində Sum qalası abidəsi aşkar olunmuşdur (Əliyev, Bağırov. 2012; 30).

Naxçıvan qala-şəhər tipli yaşayış yerləri qədim dövr tarix, mədəniyyət və incəsənətinin müxtəlif problem məsələlərinin öyrənilməsi ilə məşğul olan tədqiqatçıların diqqətindən kənarda qalmamışdır. Müxtəlif dövrlərdə B.B.Piotrovski,G.Ə.Əbilova öz tədqiqatlarında Naxçıvanın siklop tikililərinin möhtəşəmliyindən bəhs edərək onların Cənubi Qafqaz abidələri sırasındakı yerlərini müəyyənləşdirməyə səy göstərmişlər.

D.A.Axundov 1986-cı ildə yazdığı əsərində iki narınqalaya malik olan Oğlanqaladan bəhs edərək, şəhərsalma texnikasının mürəkkəbliyinə görə onun Cənubi Qafqazın şəhər-qalalarından seçildiyini xüsusi qeyd edir. O, şəhərin tikinti və memarlıq texnikasını bərpa etməyə çalışaraq, onu Suriya-Hett qalalarının memarlığı ilə müqayisə etmişdir. O. A.Axundov Qazançı, Çalxan, Vayxır, Qalacıq, Şahtaxtı və Əlincə qalalarının memarlıq xüsusiyyətlərini tədqiq etməyə və bu xüsusiyyətlər əsasında dövrlərini müəyyənləşdirməyə cəhd göstərmişdir.

Naxçıvanın II Kültəpə, Oğlanqala, Çalxanqala, Vayxırqala, Govurqala və Qazançı qalalarını öz tədqiqatlarına cəlb edən V.H.Kərimov onların memarlıq xüsusiyyətlərini bərpa etməyə səy edir. Quruluşu və Əzəmətləri ilə Naxçıvan qalalarını Cənubi Qafqazın eyni tip tikililərindən fərqləndirərək, müxtəlif tarixi mərhələlərdə bu qalaların yenidən bərpa olunub istifadə edildiyini söyləyir.

Azərbaycanın siklop tikililərini tədqiq edən T.Əliyev Naxçıvanın eyni tipli abidələrinə müraciət etmişdir. Govurqala və Qalacıq barədə söhbət edən müəllif özündən əvvəlki arxeoloqların tədqiqatlarını diqqətlə izləyir və onları ümumiləşdirməyə çalışır. Tədqiqatçı Oğlanqala, Çalxanqala və b. qalaları orta tunc dövrünə - e.ə. XVIII-XVI əsrlərə aid edir, onlardan müdafiə məqsədi ilə min ildən artıq bir müddətdə istifadə olunduğunu, Urartu qalları ilə Onlar arasındakı müəyyən oxşarlıqların olduğunu qeyd etməklə yanaşı, Naxçıvan qalalarının daha qədim dövrlərə aid olduğunu təsdiq edir (Əliyev, Bağırov. 2012; 31).

Naxçıvanın tunc-ilk dəmir dövrü qala-şəhərləri və müdafiə istehkamları müxtəlif ümumiləşdirici əsərlərdə də öz əksini tapmışdır. "Azərbaycanın tarixi abidələri" kitabında Naxçıvan ərazisindəki siklop tikililər barədə məlumat verilir. "Azərbaycanın memarlıq tarixi" kitabında Naxçıvanın siklop tikililərinin özünəməxsus xüsusiyyətləri olduğu və Qərbi Azərbaycanın eyni tip istehkamlarından seçildiyi xüsusi vurğulanır.

**ƏDƏBİYYAT**

Əliyev, V.H. (1977). Azərbaycanda tunc dövrü boyalı qablar mədəniyyəti. Bakı: Elm.

Əliyev, V.H. (1974). Şahtaxtının tunc dövr abidələri. Azərbaycan EA Xəbərlər, №4, 70-82.

Əliyev, V.H. (1975). Tarixin izləri ilə. Bakı.

Əliyev, V.H., & Aşurov, S.H. (1988). Naxıvan arxeoloji ekspedisiyasının 1988-ci il tədqiqatlarının hesabatı. Azərbaycan MEA AEİEA, h-487, 1-14.

Əliyev, V.H., & Bağırov, R.B. (2012). Naxçıvanın qədim qala şəhərləri. Bakı: Elm.

Əliyev, V.H., Baxşəliyev, V.B., & Novruzov, Ə.İ. (1983). Naxçıvan arxeoloji ekspedisiyasının 1983-cü ildə apardığı arxeoloji tədqiqatların hesabatı. Azərbaycan MEA AEİEA, h. 340, 1-75.

Əliyev, V.H., & Seyidov, M.M. (1978). Naxçıvan arxeoloji ekspedisiyasının 1978-ci il qazıntılarının hesabatı. Azərbaycan MEA AEİEA, h. 230, 1-17.

Həbibbulayev, O.H., & Əliyev, V.H. (1976). Azərbaycanın enolit dövrü boyalı qablar haqqında. AMM, VIII c, 5-14.

Həbibullayev, O.H. (1959). Kültəpə arxeoloji qazıntıları. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı.

Həbibullayev, O.H., Əliyev, V.H., & Osmanov, R. (1968). Araz ekspedisiyasının II Kültəpədə apardığı qazıntılar haqqında (1968-ci il). Azərbaycan MEA AEİEA, h-18, 3-44; h-18, 1-40.

Seyidov, M.M., & Əliyev, V.H. (Year). Qalacıq və Damlama arxeoloji qazıntılarının hesabatı. Azərbaycan MEA AEİEA, h-286, 1-8.

**Summary**

In the article, in Azerbaijan and the South Caucasus as a whole, B.C.It is said that the ancient fortress-city monuments of Nakhchivan are very valuable scientific resources for the deep and comprehensive study of the economic, social and political changes that took place in the III-II millennia, as well as the process of ethnic formation.

The study of Nakhchivan's Bronze and Early Iron Age castle-town-type dwellings and fortification monuments provided the necessary scientific opportunities for the study of many problems that have not been solved for a long time in the ancient historiography and architectural history of Azerbaijan.

In the article, first of all, the characteristic features of the formation of the ancient-city culture in Azerbaijan are reflected in the fortress-city-type settlements of Nakhchivan.Defense walls, towers, orange groves, cobbled streets, pottery and metalworking workshops, chapels, etc. were discovered in the monuments.It allows us to give a new opinion about the development of the initial elements of the state in the territory of Nakhchivan in the II-I millennium.